# Soft Primer

## Texniki Məlumat Səhifəsi

PENGUIN®
ORIGINAL PAINTS

### Məhsul təqdimatı

Penguin Soft Primer akrilik kopolimer əsasında hazırlanmış boyayla səth arasında yapışdırıcı körpü rolunu oynayan daxili cəbhə astardır. Boya sərfini azaldır, səthə asan yayılır və nahamar olmayan mat bir görünüm yaradır. Ətraf mühitə zərərsiz və qoxusuzdur.

### İstifadə olunacaq səthlər

Hər növ daxili divar, tavan, məcun, suvaq, beton, alçıpan və betopan kimi iç səthlərdə istifadə oluna bilər.

### Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Düzgün bir səth əldə etmək üçün səthə üzlük məcun – Penguin Soft Coat vurulmalı, daha sonra lazım olarsa səth sumbata olunmalıdır. Astar bir qat vurulmalıdır. Səth tempraturu +5-+30$^{0}$C arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir. Məhsul ən çox 10% su ilə durulaşdırıla bilər

### Çəkilən qat qalınlığı və nəzəri yayılma sahəsi

| | Ən az | Ən çox |
|---|---|---|
| **Çəkilən qat qalınlığı, quru (µm)** | 20 | 30 |
| **Çəkilən qat qalınlığı, yaş (µm)** | 60 | 85 |
| **Nəzəri yayılma sahəsi (m²/lt)** | 8.5 | 12 |

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Ağ |
| **Qatı maddə miqdarı** | 57%±2 (həcmcə) |
| **Sıxlığı (q/ml)** | 1.64±0.02 q/ml |
| **Özlülüyü (25°C) KU** | 115±5 |
| **Parlaqlıq** | Mat |
| **İncəltici** | 5-10 %-ə qədər su ilə incəldilə bilər |

### Boya sərfiyatı

Səth düzgünlüğü və tətbiq üsulu ilə əlaqəli olaraq tək qat 1 kq 10-13m$^{2}$ sahə boyana bilər. Sərfiyyata boyanacaq səthin nahamarlığı və məsaməliliyi, eləcə də rənglənmə üsulu və şərtləri təsir edir.

### Tətbiq üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança istifadə oluna bilər |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |


**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az


CMT

# Soft Primer

## Texniki Məlumat Səhifəsi

**Havasız tapança üçün dəyərlər**

| | |
|---|---|
| Təzyiqi | 140 - 190 kq/sm² (2100 psi) |
| Tapança keçid ölçüsü | 0.021 - 0.027 |
| Bucağı | 65 - 80º |
| Süzgəc | Süzgəcin təmizliyinə riayət olunmalıdır. |

## Quruma müddəti

Quruma müddəti əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Nisbi rütubət 70%-dən yuxarı olmamalıdır

| Havanın temperaturu | 10ºC | 23ºC | 40ºC |
|---|---|---|---|
| **Üst quruma** | 6 saat | 3 saat | 1 saat |
| **Tam (sərt) quruma** | 8 saat | 4 saat | 2 saat |
| **İkinci qatın vurulması, ən az** | 6 saat | 3 saat | 1 saat |

## Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, birbaşa günəş şüaları düşməyən depolarda, +5˚C ile +35˚C arasında qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Yararlılıq müddəti açılmamış qablaşdırmasında 3 ildir.

## Qablaşdırılma şəkli

15 lt-lik plastik qablarda istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Soft Primer

## Texniki Məlumat Səhifəsi

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

| | |
|---|---|
| S 2 | : Uşaqların əli çatdığı yerlərdən uzaq tutun. |
| S 3 / 7 | : Qabı sərin yerdə,ağzı bağlı halda saxlayın. |
| S 24 / 25 | : Göz və dəri ilə təmasdan qoruyun. |
| S 29 | : Kanalizasiyaya atmayın. |
| S 46 | : Udulduğu halda dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin. |

**Qeyd:** *"CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az